# Şanlı tarixə malik Azərbaycan Ədliyyəsi

**Azərbaycan xalqı Ali Baş Komandanın əmri ilə Vətən müharibəsində öz dəmir yumruğunu, birliyini və gücünü nümayiş etdirdi. Qazanılan qələbə, milli birliyimizin qələbəsi, bizə qürur və fəxarət yaşadan qələbə oldu.**

**Ötən ili Azərbaycan tarixinin ən parlaq illərindən biri hesab etsək, yanılmarıq. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqın və Ulu Öndərin müqəddəs arzusunu on yeddi il ərzində qətiyyətlə, ardıcıllıqla həyata keçirdiyi hərtərəfli tərəqqi və sürətli inkişaf strategiyası, mükəmməl sosial-iqtisadi islahatlar və müasir ordu quruculuğu sayəsində gerçəkləşdirdi, möhtəşəm Zəfərin, misilsiz Qələbənin memarı və müəllifi kimi adını əbədi olaraq Azərbaycanın indiki və gələcək nəsillərinin yaddaşına, Vətən tarixinə yazdırdı. Dövlət başçımızın rəhbərliyi, qətiyyəti, sərkərdəlik məharəti, xalqın Prezidentinə olan birmənalı dəstəyi və onun ətrafında sıx birləşməsi, Azərbaycan Ordusunun rəşadəti və yüksək döyüş qabiliyyəti sayəsində təmin edilən bu şanlı Zəfər hər bir azərbaycanlıda böyük qürur və iftixar hissi doğurur. Tarixi Qələbə barədə Prezident İlham Əliyev demişdir: "Bu, xalq qarşısında, tarix qarşısında, gələcək nəsillər qarşısında bizim borcumuz idi və biz bu borcu şərəflə yerinə yetirdik".**

Vətən müharibəsindəki möhtəşəm qələbə Azərbaycan tarixinin ən parlaq uğurudur. Eyni zamanda bu, bütün türk dünyasının zəferidir. Bu Zəfərlə tarixi Azərbaycan torpaqları üzərində salınacaq Zəngəzur dəhlizi türk dünyasını birləşdirən körpüyə çevriləcək. Tarixi qələbəmizlə başa çatan Vətən müharibəsi və son bir il ərzində işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində görülən işlər bir daha təsdiq edir ki, Prezident İlham Əliyev Azərbaycan xalqının arzularını reallığa çevirən, onu inamla gələcəyə doğru aparan Liderdir. Cənab İlham Əliyev dövlətimizin tarixinə möhtəşəm Zəfər salnaməsini həkk edən görkəmli dövlət xadimi, müdrik siyasətçidir. Bu Zəfər salnaməsi isə əbədiyyətə qədər tariximizi şərəfləndirəcəkdir.

Azərbaycan ədliyyəsi də qələbə ilə dolu zəfər günlərində sarsılmaz ordumuz ilə həmrəylik nümayiş etdirdi. Öz peşə bayramlarını Zəfərin ildönümü ilə birgə qeyd edən ədliyyə işçiləri ölkəmizə bu böyük qələbəni bəxş edən Ali Baş Komandanın ətrafında sıx birləşərək bundan sonra da öz vəzifələrini hər zaman layiqincə yerinə yetirmək əzmindədirlər.

Azərbaycanda 22 noyabr - Ədliyyə işçilərinin peşə bayramı günü ümummilli lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli sərəncamı ilə təsis olunmuşdur. Atıq ölkəmizdə ədliyyə orqanlarının yaradılmasından 103 il ötür. Ədliyyə sisteminin xalqımızın müstəqillik uğrunda mübarizəsini, onun şanlı keçmişini əks etdirən zəngin tarixi vardır. Ədliyyə orqanlarının keçdiyi şərəfli, eyni zamanda, çətin və fədakar yol çoxəsrlik tariximizin əlamətdar səhifələrini təşkil edir. Müstəqil dövlətçiliyimizin qorunmasında və möhkəmləndirilməsində müstəsna rol oynamış Azərbaycan Ədliyyəsinin bayramı yalnız ədliyyə işçiləri üçün deyil, hər bir vətəndaşımız üçün əlamətdardır. Belə ki, ədliyyə hər bir dövlətin, xüsusən də demokratik-hüquqi cəmiyyətin aparıcı qüvvəsidir. Bu gün biz fəxrlə deyə bilərik ki, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləyən müstəqil Azərbaycan dövləti möhkəm təməllər üzərində qurulmuş və müasir dünya tələbləri səviyyəsində fəaliyyət göstərən ədliyyə sisteminə malikdir.

Ölkəmizdə siyasi və iqtisadi islahatların paralel aparılması, o cümlədən ədliyyə və məhkəmə-hüquq islahatlarının sosial-iqtisadi inkişaf dinamikası ilə uzlaşdırılması sayəsində hərtərəfli, fenomenal sıçrayışa nail olunmuşdur. Həyata keçirilən məhkəmə-hüquq islahatlarının başlıca məqsədi Azərbaycanda qanunun aliliyinin təmin edilməsi, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkili, cinayət və mülki mühakimədə demokratik prinsiplərin qorunması, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi və digər məsələlərin konseptual həlli olmuşdur.

Ümummilli lider Heydər Əliyevin yaratdığı siyasi xətti uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ədliyyəsinin inkişafı yolunda yeni nailiyyətlər əldə edilmiş, həyata keçirilən ardıcıl və məqsədyönlü islahatlar nəticəsində nazirliyin cəmiyyətin idarə olunmasında yeri və rolu daha da artmış, nüfuzu və mövqeyi möhkəmlənmişdir. Dövlət başçısı tərəfindən ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi üzrə mühüm qərarlar qəbul olunmuş, ədliyyə fəaliyyətinin mükəmməl normativ-hüquqi bazası yaradılmış, ədliyyə işi beynəlxalq norma və prinsiplərə uyğunlaşdırılmış, qarşıya yeni mühüm vəzifələr qoyulmuşdur.

Cənab İlham Əliyevin Azərbaycan Prezidenti kimi fəaliyyət göstərdiyi illər ərzində Ədliyyə Nazirliyində, ölkəmizin məhkəmə-hüquq sistemində əsaslı islahatlar aparılmış,bu mühüm sahədə fəaliyyətin təkmilləşdirilməsi,ədliyyə orqanlarının inkişafı,ədalət mühakiməsinin səmərəliliyinin artırılması, müstəqil məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi üzrə kifayət qədər mühüm tədbirlər həyata keçirilmişdir. Belə ki, 2006-cı ildə nazirliyin yeni Əsasnaməsi qəbul edilərək ona hüquq- mühafizə orqanı statusu verilmiş və yeni müasir görünüşlü rəsmi emblemi təsdiq edilmişdir. Ədliyyə orqanlarının inkişafı, məhkəmə sisteminin müasirləşdirilməsi haqqında fərmanların imzalanması, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" yeni Qanunun, habelə Ədliyyənin inkişafına dair ayrıca Dövlət Proqramının qəbulu xüsusi əhəmiyyət kəsb edir. Nazirlikdə yeni qurumların - Ədliyyə Akademiyasının, regional ədliyyə şöbələrinin, müxtəlif reyestrlərin yaradılması isə müasir Azərbaycan ədliyyəsi tarixində mühüm yer tutur.

Azərbaycan Prezidentinin 2006-cı il 19 yanvar və 17 avqust tarixli fərmanları məhkəmə və ədliyyə orqanlarının inkişafının yeni mərhələsini müəyyən etmiş, məhkəmə-hüquq sisteminin müasir dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsinə, ölkəmizin regionlarında hüquq infrastrukturunun genişləndirilməsinə şərait yaratmışdır. Ədliyyə Nazirliyinin cəmiyyətdə rolunun və xüsusi çəkisinin əhəmiyyətli dərəcədə artması ədliyyə fəaliyyətinin müasir dövrün tələblərinə və beynəlxalq standartlara uyğun təşkil edilməsini, bu sahədə müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsini, yeni nəsil hüquqşünasların formalaşdırılmasını şərtləndirmişdir.

Bu gün ədliyyə sahəsində dövlət siyasətini və idarəetməni həyata keçirən Ədliyyə Nazirliyi qanunların təkmilləşdirilməsində iştirak edir, normativ-hüquqi aktların layihələrini hazırlayır, onların, habelə əhalinin və mətbu nəşrlərin, sahibkarlıq sahəsində aparılan yoxlamaların və qüvvədən düşmüş sənədlərin reyestrlərini,vətəndaşlıq vəziyyəti aktlarının, qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatını aparır. Həmçinin ədalət mühakiməsi əleyhinə və bir sıra digər cinayətlər üzrə ibtidai istintaqın aparılmasını, notariat fəaliyyətini, məhkəmə ekspertizalarının keçirilməsini, məhkəmələrin fəaliyyətinin təşkilati təminatını, məhkəmələrin və digər orqanların qərarlarının icrasını və probasiya nəzarətini təmin edir.

Ədalət mühakiməsinin səmərəliliyində məhkəmə infrastrukturunun müasirləşdirilməsi heç də az əhəmiyyət kəsb etmir. Son illər ərzində dövlət büdcəsi hesabına və Dünya Bankı ilə birgə məhkəmə üçün müasir bina və komplekslərin layihələri hazırlanmış, müasir məhkəmə binaları və bir neçə məhkəmənin yerləşdiyi məhkəmə kompleksləri tikilərək istifadəyə verilmiş, ədliyyə orqanları və məhkəmələrin maddi-texniki bazası gücləndirilmişdir. Məhkəmə sisteminin müasirləşdirilməsi üzrə həyata keçirilən islahatlar çərçivəsində "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında dövlət başçısının sərəncamı bu sahədə strateji prioritetləri müəyyən edir.

Qeyd edək ki, ötən dövrdə yeni nəsil hakim korpusunun formalaşdırılması məqsədilə mütərəqqi qaydalar hazırlanmış, müstəqil qurum - Hakimlərin Seçki Komitəsi yaradılmışdır. Çoxmərhələli imtahanlarda şəffaflıq və obyektivlik, nəticələrin yoxlanması və elan edilməsi nüfuzlu beynəlxalq təsisatların da diqqətini cəlb etmişdir.

Daim inkişaf edən hər bir cəmiyyətdə olduğu kimi, ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri edir. Müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəməyə müraciət imkanlarının daha da genişləndirilməsi, məhkəmələrin fəaliyyətində şəffaflığın artırılması, məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsinin təmin olunması, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması üçün görülən tədbirlərin gücləndirilməsi məqsədi ilə bu sahəni daim diqqət mərkəzində saxlayan Prezident İlham Əliyev 3 aprel 2019-cu il tarixdə "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzalamışdır. Fərmanda digər önəmli məsələlərlə yanaşı, Məhkəmə-Hüquq Şurasında hakimlərin müstəqilliyinin təmin edilməsi məhkəmələrin fəaliyyətinin daha optimal şəkildə qurulması, ədalət mühakiməsinin keyfiyyətinin yüksəldilməsi və işlərə baxılma müddətlərinin qısaldılması məqsədilə Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmə hakimlərinin sayının artırılması ölkə başçısının bu sahəyə diqqətinin və qayğısının təzahürüdür. Ədliyyə naziri, məhkəmələrin özünüidarə qurumu kimi cəmiyyətdə yüksək nüfuz və etimad qazanmış Məhkəmə-Hüquq Şurasının sədri cənab Fikrət Məmmədovun bilavasitə təşəbbüsü və ciddi səyləri ilə ədliyyə və məhkəmə-hüquq islahatları sahəsində əldə edilən nailiyyətlər ölkəmizdə və beynəlxalq miqyasda yüksək dəyərləndirilir.

Hazırda ölkəmizdə yaradılmış müasir məhkəmə sistemi vətəndaşlar üçün məhkəməyə çatımlılığı təmin edir, bölgələrdə apellyasiya və ağır cinayət, inzibati və kommersiya məhkəmələri müvəffəqiyyətlə fəaliyyət göstərir. Hakim korpusu dünya standartlarına cavab verən şəffaf metodlar əsasında formalaşdırılmış, məhkəmələrin normal fəaliyyəti üçün maddi-texniki baza yaradılmışdır.

Dövlət başçısının rəhbərliyi ilə ölkəmizin davamlı və hərtərəfli inkişaf, iqtisadi, sosial, mədəni və digər sahələrdə aparılan islahatlar, vətəndaşların həyat səviyyəsinin yüksəldilməsinə, əhalinin ən müxtəlif kateqoriyalarının problemlərinin həllinə yönəlmişdir. Bu inkişaf məhkəmə fəaliyyətinə də öz müsbət təsirini göstərib. Ölkə Prezidentinin ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına dair tapşırıqları əsasında məhkəmə fəaliyyətinin və infrastrukturunun müasirləşdirilməsi, elektron məhkəmə informasiya sisteminin tətbiqi üzrə mühüm tədbirlər həyata keçirilib. Son illər respublika məhkəmələrinin insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, ədalət mühakiməsinin qanuna müvafiq şəkildə həyata keçirildiyi müstəqil hakimiyyət qolu kimi fəaliyyət göstərmələri, cəmiyyətdə yüksək etimad qazanmaları bu sahədə beynəlxalq təcrübənin geniş tətbiqini şərtləndirib. Belə ki, məhkəmə fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi prosesi 2018-ci ildə də davam etdirilərək Mülki-Prosessual Məcəlləyə "Elektron məhkəmə" informasiya sisteminin geniş tətbiq edilməsini nəzərdə tutan köklü dəyişikliklər, məhkəmə icraatı zamanı süründürməçilik, işlərə baxılmasının əsassız uzadılması hallarının qarşısını almaq məqsədilə məhkəmə hazırlıq və məhkəmə baxış iclaslarının təyin edilməsinin konkret müddəti müəyyən edilib, hakim tərəfindən məhkəmə baxışının təxirə salınması imkanı azaldılıb.

2002-ci ildən hakimlərin fəaliyyətini vahid ictimai institut çərçivəsində əlaqələndirilməsinə, məhkəmələrin müstəqilliyinin möhkəmləndirilməsinə, digər ölkələrin məhkəmə təcrübəsinin öyrənilərək səmərəli tətbiqinə, müsbət meyillərin tətbiqinə, qanunların təkmilləşdirilməsinə çalışan Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqı bu istiqamətlərdə mühüm nəticələrə nail olub. İttifaqın məhkəmələr və hakimlərlə iş sahəsində ixtisaslaşmış Beynəlxalq Hakimlər Assosiasiyası və onun regional qurumu olan Avropa Hakimlər Assosiasiyası ilə sıx əməkdaşlığı da respublikamızın beynəlxalq nüfuzunun gücləndirilməsinə, xarici təcrübənin öyrənilərək praktik şəkildə tətbiqinə xidmət edir.

Bu gün ölkəmizdə ədliyyə və məhkəmə sisteminin təkmilləşməsi və müasirləşməsi üzrə atılan məqsədyönlü addımlar möhtərəm Prezidentimiz cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən mütərəqqi islahatların, nəhəng quruculuq işlərinin, sürətli sosial-iqtisadi inkişafın real təzahürüdür. Fürsətdən istifadə edərək bütün ədliyyə işçilərini xalqımızın ümummilli lideri, dahi öndər Heydər Əliyevin bizə bəxş etdiyi peşə bayramımız və möhtəşəm Zəfərimiz münasibətilə təbrik edir, onlara mühüm və şərəfli işlərində yeni-yeni uğurlar arzulayıram!

**Ələddin CƏFƏROV,**
**Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının sədri.**